*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* ELMİ ƏSƏRLƏRİ № *36*, 2024
НАУЧНЫЕ ТРУДЫ Азербайджанского Государственного Университета Культуры и Искусств № 36, 2024
SCIENTIFIC PAPERS *of Azerbaijan State University of Culture and Arts* № 36, 2024

**UOT 791.43**

**Könül Əlibaba Məmmədova**
**Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: km.mammedova@gmail.com**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ MELODRAM JANRI: R.OCAQOVUN "TƏHMİNƏ" FİLMİNİN TƏHLİLİ

**Xülasə:** "Təhminə" filmi Azərbaycan melodram janrında çəkilmiş ən gözəl filmlərdən biridir. Sevgi münasibətində, ailədə baş verən problemlərin əks olunduğu filmdə iki sevən insanın mühafizəkar cəmiyyətlə qarşı-qarşıya gəlməsi, cəmiyyətin qınağı, valideyn etirazı, insanın öz ürəyi ilə yox beyni ilə qərar verməsi mövzusuna toxunulmuşdur. Filmdə əsas ziddiyyət sevən gənc ilə ailəsi arasında, cəmiyyət arasındadır. Film öz süjet xətti ilə insanların fikirlərinə təsir edir və filmin insana ötürdüyü mesajlar çox təsirli və duyğusaldır.

**Açar sözlər:** melodram, kinorejissor, ssenarist, film, təhlil

Müstəqillik əldə etdikdən sonra siyasi, sosial və mədəni dəyişikliklər cəmiyyətin müxtəlif aspektlərinə, o cümlədən, kinoya böyük təsir göstərmişdir. Bu dövr kinonun janr, tematik və üslub aspektlərində əhəmiyyətli transformasiyalar dövrü kimi qeyd olunur. Əlbəttə ki, dəyişikliklər melodram janrındakı filmlərə də təsir etmişdir.

Müstəqillik illərində digər janrlar kimi melodram janrında da müəyyən dəyişikliklər olmuş, dramaturgiyada yeni mövzulara, idealara toxunulmuşdur. Yeni sosial, mədəni və siyasi kontekstlərin yaranması ilə melodram janrındakı filmlər mövzu baxımından daha müxtəlif olmuşdur. Melodramlarda ənənəvi romantik münasibətlər daha az təsvir olunmuş, daha çox dərin, mürəkkəb əlaqələr, münasibətlər, şəxsi azadlıq, tolerantlıq, gender və sosial bərabərsizliklər, sosial problemlər, miqrasiya, ailə modellərinin müxtəlifliyi kimi geniş spektrli məsələlər öz əksini tapmışdır.

Melodramların dramaturgiyasında əvvəlki ənənələr davam etsə də, fərq daha çox personajların xarakterində idi. Filmlərin süjet xəttində obrazların psixoloji vəziyyəti, daxili dünyası, mürəkkəb münasibətləri, sosial problemləri və daha cəsarətli mövzular öz əksini tapmışdır. Bu da melodramın üslubuna təsir edərək filmi daha mənalı edir. Bu üslub dəyişiklikləri də rejissorlara və operatorlara melodram filmlərini çəkəndə daha yaradıcı olmağa, onları daha canlı, emosional və bənzərsiz etməyə imkan yaradıb. Beləliklə, deyə bilərik ki, bu dövrdə melodram janrında çəkilən filmlərin dramaturgiyasında qəhrəmanlar və onların xarakterləri mühüm rol oynamış, hətta süjet xəttinin quruluşunu müəyyənləşdirmişdir. Bu haqda sənətşünas Nadir Bədəlov "Kino gözlə söz arasında" kitabında qeyd edir: "*Hər şey qəhrəmandan başlayır və onunla da sona yetir... Qəhrəmanın inandırıcı olması prinsipi də şərt kimi dramaturqun, ssenaristin qarşısında dayanır. Bununla əlaqədar Layoş Eqri "ölçülü qəhrəman"*

*anlayışını irəli sürür. Hər bir insanın xarakterini üç göstərici təyin edir –* birinci onun *sosial kimliyi, ikinci bu adamın fizioloji naturası, yəni vücudu, üçüncüsü isə onun psixologiyasıdır. Bu göstəricilərin hər biri ayrı-ayrılıqda xarakterin təyinedici faktoruna çevrilir. Zəngin ailədən çıxmış bir oğlanla səfil, yaşamağa pul tapmayan adamların arasında böyümüş oğlan arasında böyük fərq olacaq, əslində, bu fərq onların davranışında, əməllərində özünü göstərməlidir ki, bu da əsərin süjet xəttinin inkişafı üçün bir çox hallarda həlledici rol oynayır... Eqri hadisənin qəhrəmanın xarakterindən törədiyini israr edir və bununla da dramatik əsərin quruluşu haqqında Aristoteldən gələn fikirləri müəyyən mənada bəsitləşdirir. O daha çox xarakteri önə çəkir, onu dramatik əsərin bütün digər komponentlərindən üstün hesab edir. Layoş Eqrinin davamçıları olan ssenari təlimatçıları kinoda, əsasən, ulduzların meydana gəlməsinə xidmət edirlər”* [1, s.65-67].

*“Melodram filmlərinin süjet və quruluş konsepsiyasının qarşısında duran əsas məqsəd dramaturji gərginlik yaratmaqdır”* [6. s.102]. Dramaturji gərginlik də filmin qəhrəmanlarının üzərində qurulur, onların qarşılıqlı münasibətləri, başlarına gələn hadisələr gərginliyi artırır. Yenə də bu qənaətə gəlmək olur ki, personajlar və onların xarakteri filmin quruluşunda çox önəmlidir. Bu haqda da sənətşünas Nadir Bədəlov deyir: “*Dramaturji gərginlik görünənlə danışılanın, göstərilənlə nəql olunanın, mimesislə diegezisin qarşıdurması aralarındakı kəskin fərqdən yaranır*” [1, s.24].

Dövrünün və bu günün sevilən “Təhminə” [1993] filmi Anarın “Beşmərtəbli evin altıncı mərtəbəsi” romanı əsasında “Ocaq” kinostudiyasında rejissor Rasim Ocaqov tərəfindən ekranlaşdırılmışdır. Film tamaşaçılar arasında “Təhminə və Zaur” kimi məşhurlaşmışdır. Filmin süjet xətti “inam və etibar olmayan yerdə sevgi mümkünsüzdür” ideyası və “iki gəncin sevgisi, cəmiyyətin bu sevgiyə qarşı çıxması” mövzusu üzərində qurulmuşdur. Film mövzusu, ideyası, aktyorların emosional ifası, musiqiləri, süjetin inkişaf dinamikası, gərgin və duyğusal səhnələri, qeyri-adi planları ilə hər zaman dövründən asılı olmayaraq tamaşaçıların diqqətini cəlb etmişdir.

İki sevən insanın mühafizəkar cəmiyyətlə qarşı-qarşıya gəlməsi, cəmiyyətin qınağı, valideyn etirazı, insan övladının öz ürəyi ilə yox beyni ilə, “insanlar nə deyər?” – düşüncəsi ilə yaşaması filmin ana mövzusunu təşkil edir. *“Təhminə” filmi dövrünə görə cəsarətli filmdir. Filmin dramaturgiyasında gərginlik insanın verdiyi həyati qərar ilə ictimai rəy arasındakı ziddiyyəti təşkil edir. Həmin ziddiyət istər müstəqillikdən sonra, istərsə də bu gün üçün həmişə aktualdır [3, s 625].*

Təhminə dövrünə görə azad düşüncəli, gözəl, baxımlı, ünsiyyətcil, mehriban, bir çox kişilərin diqqətini cəlb edən, yoldaşından boşanan qadındır. Boşanmış qadın Azərbaycan cəmiyyətində birmənalı qarşılanmır. Müəllif də bu fikri filmin əsas mövzusuna çevirərək süjet xəttində boşanmış qadına cəmiyyətin baxışını, gözəl, müasir qadına insanların yanaşmasını, Təhminənin sevgisini qazanmayan kişilərin ona əxlaqsız damğasını vurmasını mükəmməl formada işləmişdir. Subay oğlan Zaurla boşanmış qadın Təhminənin sevgisi nə Zaurun ailəsində, nə də cəmiyyətdə qəbul olunur. Zaur Təhminəni sevsə də, ətrafdakı insanların qınağı, söz-söhbətləri onu sevgi uğrunda sona qədər mübarizə aparmaqdan çəkindirir. Çünki Zaur da bu cəmiyyətdə

yaşayan bir kişidir. Bu film Azərbaycan kişilərinin düşüncə tərzini, dünyaya baxışını müəyyən dərəcədə ifadə edir. Müəllif də Zaur obrazı ilə xarakteri zəif kişilərin "kimliyini" özlərinə göstərir. Təhminə obrazı isə Azərbaycan cəmiyyəti üçün yeni obrazdır, Azərbaycan qadınının tipik siması deyil. Təhminənin həyat tərzi, düşüncəsi, fikirləri fərqlidir. Amma onun yaşadığı problemlər, üzləşdiyi çətinliklər Azərbaycan cəmiyyətini əks etdirir. Ailədə övlad istəyi, qadının kişidən asılılığı, qaynana hökmranlığı filmdə cəmiyyətdə olduğu kimi təsvir edilmişdir. Təhminə nə qədər incidilsə də, Zauru çox sevir. Filmin dramaturji xəttində Təhminənin sevgisi o qədər gözəl, detallı verilmişdir ki, tamaşaçı Təhminə ilə bərabər sevinir, kədərlənir, ağlayır, ona əxlaqsız adını yapışdırmaq istəmir. Zaurun onu izlədiyi səhnədə tamaşaçı yanılmaq istəyir, zahirdə görünənləri qəbul etmir, Təhminəyə yaraşdırmır.

Zaur Təhminəni sevsə də ona ailə quracaq qadın kimi baxa bilmir. Cəmiyyətdə bəzi kişilər arasında "əylənəcəyim qadın", "evlənəcəyim qadın" düşüncəsi Zaurdan da yan keçmir və bu fikir onun tam xoşbəxt olmasına mane olur. Zaur evlənəcəyi qadını tapsa da çılğın sevgini "əylənəcəyi qadın" ilə bərabər itirir. Bu sevgiyə mühafizəkar cəmiyyətin qınağı, baxışı mane olur. Filmin ən təsirli səhnələrindən biri Təhminənin zəng vurub Zaurun səsinə, nəfəsinə qulaq asmasıdır. Filmdə istifadə olunan musiqi filmin emosionallığını daha da artırır. Filmdə etik olmayan bir neçə ifadə işlədilir ki, bu da müəlliflərin obrazları real həyatda olan insanlardan biri kimi təqdim etmək istəyindən irəli gəlir.

Filmin dramaturji strukturunu Robert Makkinin 3 aktlı nəzəriyyəsinə görə aşağıdakı kimi təhlil edə bilərik.

I akt – Zaur ata-anası ilə mübahisə edərək evdən gedir.

II akt – Zaur Təhminə ilə mübahisə edir, ona sillə vurur. Zaur evdən gedir.

III akt – Zaur Təhminənin ölüm xəbərini bilir.

Filmi 3 hissəyə bölən hər bir aktı qısametrajlı film kimi təsəvvür etmək olar. Birinci aktda Zaurun ailəsi, Təhminənin iş həyatı göstərilir. Zaur ilə Təhminə iş şəraitində tanış olurlar. Onların bir-birlərinə qarşı olan sevgisi, marağı günbəgün artır. Bir gün Zaurun atası Zeynallı ilə anası Zivər ona Firəngiz ilə evlənməyi təklif edirlər və bilirlər ki, Zaur Təhminəni sevir. Bu səhnə ilə də filmdə konfliktin əsası qoyulur. Filmin süjet xəttində qəhrəmanın qarşısında seçim yaranır: Zaur kimi seçəcək ailəsini, yoxsa Təhminəni? Zaur ata-anası ilə mübahisə edərək evdən gedir. Bu səhnə ilə də birinci akt sona çatır. Bu hissəni qısametrajlı film kimi təsəvvür etsək filmin finalı bu səhnə ola bilər. Zaur sevgisinə görə ailəsindən üz çevirib gedir.

İkinci akt ilə ikinci qısametrajlı film başlayır. Zaur Təhminənin evinə gəlir. Bir yerdə yaşamağa başlayırlar. Qarşılarına müxtəlif problemlər çıxır, günbəgün artan qısqanclıqlar Zaurun ürəyinə şübhələr salır. Anası Zivər onları ayırmaq üçün bir çox cəhdlər edir. Bütün bu konfliktlər bir gün Zaur ilə Təhminəni üz-üzə qoyur. Aralarındakı mübahisə ayrılmaqlarına səbəb olur. Zaur Təhminə ilə mübahisə edir, ona sillə vurur. Zaur evdən gedir. Bu səhnə ilə də ikinci akt sona çatır. Filmin bu hissəsini də qısametrajlı film kimi təqdim etmək olar. Bir oğlan sevgilisinin yanına gəlir və münasibət ayrılıq ilə sona çatır.

Üçüncü aktı da ayrıca qısametrajlı film kimi təqdim etmək olar. Sevgilisindən ayrılan Zaur ailəsinin yanına geri dönür. Valideynlərinin məsləhəti ilə Firəngiz ilə evlənməyə razı olur. Onların nişanı, toyu olur, bal ayına Türkiyəyə gedirlər. Evlənən Zaur keçmiş sevgilisini yaddan çıxara bilmir, onun xəyalı ilə yaşayır. Cütlük Bakıya qayıdanda Zaur Təhminənin ölüm xəbərini eşidir. Bununla da üçüncü qısametrajlı film bitir. Üçüncü akt sona çatır.

Makki nəzəriyyəsinə görə 3 aktın daxilində də beş zəruri struktur hissə var. Bu hissələr həm də süjetin kompozisiyasını təşkil edir. "Təhminə" filmini bu beş struktur hissəyə görə aşağıdakı kimi təhlil edə bilərik.

Ekspoziya – Zaurun atası Zeynallı ilə anası Zivər Firəngiz ilə evlənməyi ona təklif edirlər və Zaur onların təklifinə qarşı çıxır. Valideynlər bilirlər ki, Zaur Təhminəni sevir. Bununla da filmdə konfliktin əsası qoyulur.

Düyün – Zaur valideynlərinə qarşı çıxaraq sevdiyi qadına görə evdən gedir.

Kulminasiya – Zaur Təhminə ilə mübahisə edərək ona sillə vurur (tamaşaçıda Zaur indi Təhminənin yanında qalacaq, yoxsa ailəsinin yanına qayıdaraq Firəngizi seçəcək sualı yaranır və bu səhnə filmin ən dramatik səhnəsidir).

Açılış – Zaur Təhminənin yanından gedir.

Final – Zaur Təhminənin ölüm xəbərini eşidir.

Filmin insana ötürdüyü mesajlar da çox təsirli və duyğusaldır. Bu da əsl melodram janrına xas olan bir xüsusiyyətdir. Demək olar ki, bu cür açıq mesajlar elə bu dövrün melodramlarında öz əksini tapır. İnsanlar Zaur obrazı kimi bəzən verdiyi qərarın, seçdiyi yolun onu xoşbəxtliyə aparıb aparmadığını bilmədən mühitinin israr etdiyi "işıqlı yolu" seçir, amma öz daxili aləmində "qaranlıq yolun" yolçusu olur. Xoşbəxtlik, sevinc, ruhi rahatlıq insanın ürəyində, daxilində olur, hara gedirsənsə get, səninlə bərabər gedir. Amma bədbəxtsənsə, olduğun yerdən, səni incidən mühitdən insanlardan nə qədər qaçsan, dünyanın başqa bir ölkəsinə getsən belə özündən, keçmişindən, hisslərindən qaça bilməzsən. Zaurun evlənib İstanbula getməsi, yanında yoldaşı ola-ola Təhminəni xatırlaması kimi. Filmdə Təhminənin dilindən səslənən bu ifadələr gənc nəsil üçün çox ibrətamizdir: *"Axı heç bir təyyarə, heç bir gəmi, heç bir nəqliyyat vasitəsi insanın özünü-özündən uzaqlaşdıra bilmir, keçmişindən ayıra bilmir və "səadət axtarmaq ifadəsi" o demək deyil ki, səadəti axtarıb tapmaq üçün düzə-dünyaya düşməlisən… Xoşbəxtlik, ya bədbəxtlik insanın öz içindədir, onları yük kimi özünlə daşıyırsan belədən-belə, hara gedirsən get, lap dünyanın o başına; bu etibarlı yükdür – hara gedirsən get – nə itəcək, nə batacaq, nə azalacaq, nə artacaq*" [7].

Filmin ən duyğusal və insanların fikirlərinə təsir edəcək səhnəsi Zaurun Təhminəyə sillə vurduğu səhnədir. Bu anda Təhminənin söylədiyi cümlədə böyük bir hikmət var: *"Amma bunu bil, kişi mələkəni fahişəyə çevirən deyil, fahişəni mələkəyə çevirəndir"* [7].

Bir filmin bu qədər uğur qazanmasına, hər dövrdə sevilməsinə səbəb onun müəllif heyətinin mükəmməl işi, filmin dramaturgiyasının düzgün qurulması, rejissorun duyğuları professional formada verməsi və əlbəttə ki, mükəmməl aktyor oyunudur.

"Təhminə" filmi Azərbaycan kinosunun ən gözəl filmlərindən biri hesab olunur.

Bu uğuruna görə film 1993-cü ildə Bakıda keçirilən Azərbaycan filmlərinin II festival-müsabiqəsində yüksək qiymətləndirilmişdir. Belə ki, filmin quruluşçu rejissoru Rasim Ocaqov ən yaxşı rejissor işinə görə, aktrisa Zərnigar Ağakişiyeva isə ən yaxşı qadın roluna görə mükafatlandırılmışdır.

## Ədəbiyyat siyahısı:

1. Bədəlov N. Kino gözlə söz arasında. Bakı, Parlaq imzalar, 2023, 448 s.
2. Dadaşov A. Müstəqillik dövrünün dramaturgiyası: teatr dramaturgiyasında mövzu, struktur, üslub və janr problemləri. Bakı, Nağıl evi, 2005, 218 s.
3. Kazımzadə A. Kino və zaman. Bakı, Şərq-Qərb, 2016, 784 s.
4. Kazımzadə A. Bizim "Azərbaycanfilm" 1923-2003-cü illər. Bakı, Mütərcim, 2004.
5. Kazımzadə A. Azərbaycan kino salnaməsi 1898-2018. 2 cilddə. 2020, Bakı, Şərq-Qərb, 767 s.
6. Dallas, W. Soap Opera and the Melodramatic. London, İmprintRoutledge, 1982. 160 p.
7. Youtube.com "Təhminə" (film, 1993) 25.03.2023 // https://www.youtube.com/watch?v=6CPIeR2lN_s

**Конуль Алибаба Мамедова**

## ЖАНР МЕЛОДРАМЫ В ГОДЫ НЕЗАВИСИМОСТИ: АНАЛИЗ ФИЛЬМА Р.ОДЖАГОВА «ТАХМИНА»

**Резюме:** Фильм "Тахмина" – один из самых прекрасных фильмов, снятых в жанре мелодрамы. В фильме, отражающем проблемы в любви и семье, речь идет о противостоянии двух любящих людей консервативному обществу, критике общества, возражении родителей, а также о том, что человек принимает решения сердцем, а не умом. Главный конфликт в фильме разворачивается между любящим молодым человеком и его семьей, и обществом. Фильм влияет на людей своей сюжетной линией, а послания, передаваемые в фильме, очень эффективны и эмоциональны.

**Ключевые слова:** мелодрама, кинорежиссер, сценарист, фильм, анализ

**Konul Alibaba Mammadov**

## MELODRAMA GENRE IN THE YEARS OF INDEPENDENCE: TAHMINA" BY R.OJAGOV (FILM ANALYSIS)

**Summary:** The film "Tahmina" is one of the most beautiful films made in the genre of Azerbaijani melodrama. The film, which reflects problems in love and family, deals with the confrontation of two loving people with a conservative society, the criticism of society, parental objection, and the fact that a person makes decisions with

his heart and not with his brain. The main conflict in the film is between the loving young man and his family, and society. The film affects people's thoughts with its subject line and the messages conveyed by the film are very effective and emotional.

**Keywords:** Melodrama, film director, screenwriter, film, analysis

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**